**Azərbaycan Respublikası adından**
**Q Ə T N A M Ə**

İş № 2(103)-      /2019

“     ”            2019-cu il                                                                                    Bakı şəhəri

Bakı Apellyasiya Məhkəməsinin mülki kollegiyası

Hakimlər Raqib Əliddin oğlu Qurbanovun sədrliyi və məruzəsi ilə, Etibar Qəzənfər oğlu Nəbiyev və Aida Əli qızı Hüseyndən ibarət tərkibdə,

məhkəmə iclas katibi Lalə Adil qızı Əbdürrəhimovanın katibliyi ilə,

iddiaçılar XXXX qızının, XXXX qızının, XXXX qızının, iddiaçı XXXX qızının nümayəndəsi və vəkili XXXX oğlunun, cavabdeh XXXX oğlunun və üçüncü şəxsin nümayəndəsi XXXX qızının iştirakı ilə,

Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin 2(008)-          /2018 saylı mülki iş üzrə qəbul etdiyi 18 oktyabr 2018-ci il tarixli qətnaməsindən iddiaçılar XXXX qızı, XXXX qızı və XXXX qızı tərəfindən verilmiş apellyasiya şikayətinə əsasən mülki işə Bakı Apellyasiya Məhkəməsinin binasında, açıq məhkəmə iclasında baxaraq,

**m ü ə y y ə n    e t d i:**

İddiaçılar XXXX qızı, XXXX qızı və XXXX qızı cavabdehlər XXXX oğluna və Bakı şəhəri XX Saylı Notariat Kontoruna (3-cü şəxs XXXX) qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, Bakı şəhəri Sabunçu rayonu, XXXX qəsəbəsi, XXXXküçəsi, XX saylı evin, XX saylı mənzilə dair cavabdeh XXXX oğlunun adına Bakı şəhəri XX saylı Notariat Kontoru tərəfindən verilmiş qanun üzrə vərəsəlik hüququ haqqında 14.08.2012-ci il tarixli, reyestrdə XXXX qeyd edilmiş şəhadətnamənin etibarsız hesab edilməsi, həmin şəhadətnamə əsasında mənzilə dair cavabdeh XXXX oğlunun adına verilmiş çıxarışın ləğv edilməsi və miras əmlakda paylarının müəyyən edilməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin 18 oktyabr 2018-ci il tarixli 2(008)-   /2018 saylı qətnaməsi ilə iddia təmin edilməmişdir.

İddiaçılar XXXX qızı, XXXX qızı və XXXX qızı həmin qətnamədən apellyasiya şikayəti vermişdir.

Apellyasiya şikayətində işin faktiki halları göstərilmiş və əlavə olaraq göstərilmişdir ki, birinci instansiya məhkəməsi maddi və prosessual hüquq normalarını pozmuş, işin hallarını tam və hərtərəfli araşdırmamış və işin hallarına uyğun olmayan nəticəyə gəlmişdir.

Məhkəmə iclasında iddiaçılar XXXX qızı, XXXX qızı, XXXX qızı, iddiaçı XXXX qızının nümayəndəsi və vəkili XXXX oğlu apellyasiya şikayətini müdafiə etdilər, cavabdeh XXXX oğlu və üçüncü şəxsin nümayəndəsi XXXX qızı isə apellyasiya şikayətinə etiraz etdi.

Cavabdeh Bakı şəhəri XX saylı notariat kontorunun nümayəndəsi məhkəmə iclasına gəlməmişdir. Məhkəmə kollegiyası Mülki Prosessual Məcəllənin 376.2-ci maddəsini rəhbər tutaraq onun iştirakı olmadan işə baxılmasını mümkün hesab edir.

Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya şikayəti təmin edilməməlidir.

Belə ki, iş materiallarına və tərəflərin izahatlarına əsasən mübahisəsiz qaydada müəyyən olunur ki, XXXX oğlu 14 dekabr 2011-ci il tarixdə vəfat etmişdir. Onun ölümündən sonra Bakı şəhəri, Sabunçu rayonu, XXXX qəsəbəsi, XXXX küçəsi XX saylı evin XX saylı mənzili miras qalmışdır. Miras qoyanın qanun üzrə 1-ci növbə 8 vərəsəsi (uşaqları) vardır. Onlar aşağıdakılardır: XXXX oğlu, XXXX oğlu, XXXX oğlu, XXXXqızı,

XXXX qızı, XXXX qızı, XXXX qızı və XXXX qızı. Cavabdeh XXXX oğlu miras qoyanla birgə həmin mənzildə yaşamış və miras açılandan sonra da mənzildə yaşamağa davam etmişdir. İddiaçılar isə Gəncə şəhərində yaşayırlar. Vərəsələrdən XXXX oğlu, XXXX oğlu, XXXXoğlu, XXXXqızı, XXXXqızı XX mart 2012-ci il tarixdə mirasın qəbul edilməsi ilə bağlı XX saylı notariat kontoruna müraciət etmişlər. XXXX oğlu, XXXXoğlu, XXXXqızı, XXXXqızı miras paylarından qardaşları XXXX oğlunun xeyrinə imtina etmişlər. Bundan başqa digər heç bir vərəsə mirasın qəbulu ilə əlaqədar müraciət etmədiyindən miras əmlaka dair şəhadətnamə 14 avqust 2012-ci il tarixdə yalnız XXXX oğluna verilmiş və sonuncu miras əmlak olan mənzili xüsusi mülkiyyət hüququ ilə adına qeydiyyata aldırmışdır.

İddiaçılar bildirir ki, bu ilin aprel ayında onlara məlum olmuşdur ki, cavabdeh atalarına məxsus olan miras əmlakı öz adına rəsmiləşdirmiş, rəsmiləşdirmə zamanı isə qanunsuzluğa yol verilərək, digər vərəsələr - daha 3 bacının mövcud olmasını gizlədilmiş, notariat kontorunda vərəsələrin dairəsi tam göstərilməmişdir. Notariusun hərəkətləri isə hüquqa zidd olmuş, qanunsuz sənədləşmə işləri aparılmaqla, qardaşları miras əmlak üzərində onların da payına sahib olmuş, vərəsəlik hüquqlarını pozmuşlar. Bununla bağlı onlar notariat kontoruna ərizə ilə müraciət etsələr də, cavabdeh həmin şəhadətnaməni ləğv etməkdən, miras əmlakda onların payını verməkdən imtina etmişdir. Belə olan halda məcburiyyət qarşısında qalaraq məhkəməyə müraciət etmişlər.

Cavabdeh XXXX oğlu iddiaya etiraz edir və bildirir ki, atasının bütün maddi tələbatı onun tərəfindən ödənilmiş, atası vəfat etdikdən sonra dəfn xərclərini və yas mərasimlərini özü ödəmişdir.

Məhkəmə kollegiyası hesab edir ki, iddia rədd edilməlidir.

Belə ki, miras əmlakla bağlı mübahisə açmaq və vərəsəlik hüququ haqqında şəhadətnaməni mübahisələndirmək hüququna yalnız miras əmlakı qəbul etmiş vərəsələr malikdir.

Hazırkı işdə də iddiaçılar vərəsəlik hüququ haqqında şəhadətnaməni mübahisələndirmək üçün əvvəla mirası əmlakı qəbul etmələrini sübut etməlidirlər.

Belə ki, Mülki Məcəllənin 1243.1 və 1243.2-ci maddələrinin tələblərinə görə mirası istər qanun üzrə, istərsə də vəsiyyət üzrə vərəsə qəbul edir. Vərəsə mirasın açıldığı yer üzrə notariat kontoruna mirası qəbul etdiyi barədə ərizə verdikdə və ya əmlaka sahiblik etməyə və ya əmlakı idarə etməyə faktik başladıqda və bununla da mirası qəbul etdiyini şəksiz nümayiş etdirdikdə miras vərəsə tərəfindən qəbul edilmiş sayılır.

Həmin Məcəllənin 1246-cı maddəsində isə təsbit olunmuşdur ki, vərəsə vərəsəliyə çağırıldığını bildiyi və ya bilməli olduğu gündən üç ay ərzində mirası qəbul edə bilər. Miras açıldığı gündən altı ay keçdikdən sonra mirasın qəbuluna yol verilmir.

Lakin iddiaçıların mirası əmlakı qəbul etmələri müəyyən olunmur. Çünki onlar Mülki Məcəllənin 1246-cı maddəsində göstərilən müddətdə mirasın qəbul edilməsi barədə ərizə ilə notariat kontoruna müraciət etməmiş, həmçinin mirası faktiki surətdə qəbul edilməsi ilə bağlı hər hansı hərəkətlər etməmişlər.

Kollegiya qeyd edir ki, bu hallar işin mübahisəsiz hallarıdır. Çünki iddiaçılar nəinki mirası qəbul etmələri ilə bağlı məhkəməyə sübut təqdim etmişlər, ümumiyyətlə iddia ərizəsində onlar tərəfindən mirasın qəbul edilməsi hallarına istinad belə etməmişlər.

Bu baxımdan kollegiya hesab edir ki, 14 dekabr 2011-ci il tarixdə vəfat etmiş XXXX oğlundan miras qalmış əmlakın (Bakı şəhəri, Sabunçu rayonu, XXXX qəsəbəsi, XXXX küçəsi XX saylı evin  XX saylı mənzili) iddiaçılar tərəfindən qəbul edilməsi müəyyən olunmadığına görə, onlar həmin miras əmlakla bağlı mübahisə açmaq və vərəsəlik şəhadətnaməsini mübahisələndirmək hüququna malik deyillər və həmin hissədə iddia tələbləri subyektiv hüququ olmayan şəxslər tərəfindən qaldırılmış hesab olunmalıdır.

Bununla bağlı kollegiya qeyd edir ki, hər kəs özünün subyektiv hüququnun həyata keçirilməsi və ya bərpası üçün iddia irəli sürmək yolu ilə məhkəmə müdafiəsi vasitələrindən istifadə edə bilər. Lakin bu zaman mütləq nəzərə almaq lazımdır ki, iddia etmək hüququ öz daxilində iddianı təqdim etmə və iddianın təmin olunması hüquqlarını

ehtiva edir. Birinci hüquq məhkəmədən yaranmış mübahisəyə baxılmasını və müvafiq prosessual qaydada həll edilməsini tələb etmək hüququdur. İkinci hüquq iddia tələblərinin məhkəmə vasitəsi ilə məcburi şəkildə həyata keçirilməsinin mümkünlüyünü nəzərdə tutur. Buna görə, məhkəmə əvvəlcə iddiaçının müvafiq subyektiv hüquqa malik olub-olmamasını və cavabdeh tərəfindən həmin hüququn pozulub-pozulmadığını araşdırmalıdır. Yalnız belə subyektiv hüququn mövcudluğu və onun cavabdeh tərəfindən pozulması faktı müəyyən edildikdən sonra pozulmuş hüququn məhkəmə tərəfindən bərpa edilməsinə yol verilə bilər.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun "M.Bağırovun şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki işlər üzrə məhkəmə kollegiyasının 04 may 2007-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" 30 iyul 2008-ci il tarixli qərarında da oxşar hüquqi mövqe nümayiş etdirilməklə aşağıdakılar qeyd edilmişdir: "Mülki mübahisənin qanuni həlli üçün işə baxan məhkəmə ilk növbədə iddia qaldırmış şəxsin müvafiq subyektiv hüquqa malik olub-olmamasını araşdırmalıdır. Subyektiv mənada hüquq normativ hüquqi aktlarla müəyyən olunmuş zahiri azadlığı ifadə edir. Şəxsiyyətin davranışının bu və ya digər üsulunu seçməklə şüurlu olaraq məqsədləri müəyyən etmək və onların istiqamətində hərəkət etmək imkanı belə azadlığın daxili cəhətidir. Bu cəhət hüquqi tənzimləmənin əhatəsinə düşmür. Həmin azadlığın ictimai münasibətlərdə öz məqsədini ifadə etmək imkanı kimi qəbul olunan xarici cəhəti isə mühüm əhəmiyyət kəsb edir. İkinci (xarici) cəhət hüquqi ixtiyar kimi təzahürü ehtiva edir. Belə ki, subyektiv hüquq üç elementin məcmusu kimi qiymətləndirilə bilər: öz hərəkətlərinə hüquqi ixtiyar; başqa (borclu) şəxslərdən tələb etmək hüququ; müdafiə hüququ".

Göstərilənlərə əsasən məhkəmə kollegiyası belə nəticəyə gəlir ki, vərəsəlik hüququ haqqında şəhadətnamənin etibarsız hesab edilməsi barədə iddia tələbləri buna müvafiq subyektiv hüququ olmayan şəxslər tərəfindən qaldırıldığına görə, sübutlar araşdırılmadan rədd olunmalıdır.

Eyni zamanda digər iddia tələbləri də rədd olunmalıdır.

Belə ki, etibarsız hesab edilməmiş vərəsəlik hüququ haqqında şəhadətnamə əsasında verilən çıxarışın ləğv edilməsi üçün heç bir qanuni əsas mövcud deyildir.

Həmçinin yuxarıda göstərildiyi kimi iddiaçılar qanunla müəyyən edilmiş müddətdə mirası qəbul etmədikləri üçün miras əmlakda paylarının müəyyən edilməsi barədə tələbləri əsassızdır.

Belə ki, Mülki Məcəllənin 1273-1-ci maddəsinə görə vərəsə bu Məcəllə ilə müəyyən edilmiş müddətlər daxilində mirası qəbul etmədikdə və ya ondan imtina etmədikdə, müvafiq olaraq bu Məcəllənin 1262-ci və 1263-cü maddələri tətbiq edilir.

Həmin Məcəllənin 1262-ci maddəsində isə təsbit olunmuşdur ki, əgər vərəsə mirası qəbul etməkdən imtina etmişdirsə, lakin kimin xeyrinə imtina etdiyini bildirməmişdirsə, onun payı qanun üzrə vərəsəliyə çağırılmış vərəsələrin payına, vəsiyyətnamə ilə bütün əmlakın bölüşdürüldüyü halda isə vəsiyyət üzrə vərəsələrin payına əlavə edilir və onların arasında paylarına mütənasib surətdə bölüşdürülür, bu şərtlə ki, vəsiyyətnamədə ayrı qayda nəzərdə tutulmasın.

Beləliklə, məhkəmə kollegiyası belə nəticəyə gəlir ki, birinci instansiya məhkəməsinin qətnaməsi qanuni və əsaslı olmaqla işin hallarına uyğundur, apellyasiya şikayətində irəli sürülən dəlillər isə əsassızdır və mahiyyətcə düzgün olan birinci instansiya məhkəməsinin qətnaməsinin ləğvi üçün əsas ola bilməz.

Göstərilənlərə əsasən və Mülki Prosessual Məcəllənin 384.0.1, 392, 393, 405-ci maddələrini rəhbər tutaraq, məhkəmə kollegiyası

**q ə t e t d i:**

İddiaçılar XXXX qızı, XXXX qızı və XXXX qızı tərəfindən verilmiş apellyasiya şikayəti təmin edilməsin.

Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin 2(008)-         /2018 saylı mülki iş üzrə qəbul etdiyi 18 oktyabr 2018-ci il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılsın.

Qətnamədən rəsmi qaydada verildiyi gündən 2 ay müddətində Bakı Apellyasiya Məhkəməsi vasitəsi ilə Azərbaycan Respublikası Ali Məhkəməsinə kassasiya şikayəti verilə bilər.

Sədrlik edən: imza

Hakimlər: imzalar

Əsli ilə düzdür:
Hakim Raqib Qurbanov